# 10 may ümummilli lider Heydər Əliyevin doğum günüdür

## Ümummilli liderin anadan olmasının 96 illiyi böyük izdihamla qeyd olunub




***Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının tarix boyu yetişdirdiyi nadir və bənzərsiz şəxsiyyətlərdəndir. Bütün həyatını xalqına və dövlətinə xidmətə həsr edən ulu öndər bu müqəddəs amal uğrunda ən çətin maneələrə, problemlərə mərdliklə sinə gərən millət fədaisi kimi hər zaman böyük ehtiramla xatırlanır. Müstəqil Azərbaycan dövlətinin qurulması, inkişaf etdirilməsi kimi böyük tarixi missiyanı yerinə yetirmək qüdrətinə malik olan ümummilli lider xalq və Vətən qarşısında misilsiz xidmətlərinə və müstəsna tarixi roluna görə Azərbaycan xalqının həqiqi lideri və xilaskarı kimi şərəfli missiyanı böyük əzmlə yerinə yetirib.***





Qəbələdə Azərbaycan xalqının dahi oğlu, ümummilli lider Heydər Əliyevin anadan olmasının 96 illiyi qeyd olunub.

İzdihamlı keçən tədbirdə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların əmək kollektivləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Böyük coşğu ilə tədbirə gələn qəbələlilər ulu öndərin abidəsi önünə gül dəstələri qoyaraq ümummilli liderinin əziz xatirəsinə öz dərin ehtiramlarını bildiriblər.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

## Zəmanəmizin Böyük Azərbaycanlısı

***Heydər Əliyevin xilaskar adı tarixə qızıl hərflərlə yazılmışdır.***

***Bu böyük insan bütün mənalı həyatını canından artıq sevdiyi doğma xalqına həsr etmişdir. Heydər Əliyevin ömrünün hər anı, hər dəqiqəsi vətənə, millətə sədaqətlə xidmətin əsl təntənəsi idi. Onun dünyaya gəlişi bir evin, bir ailənin sevinciydisə, şüurlu həyatı, səmərəli fəaliyyəti isə bütöv bir xalqın yoluna nur saçan parlaq günəş oldu.***

Xalqımızın görkəmli oğlu Heydər Əliyevin həyat yolu və siyasi irsi olduqca zəngindir. Vətənini, xalqını sonsuz məhəbbətlə sevən, azərbaycanlı olmağı ilə həmişə qürur duyan ümummilli lider bütün zamanların ən böyük azərbaycanlısı olmuşdur. Azərbaycançılıq onun qanında, ruhunda, mayasında idi.

Tarixdə o xalqlar adını dünyanın xoşbəxt xalqları siyahısına yaza bilir ki, tufanlarla üzləşəndə, qaranlıq gecədə səmtini itirib qorxunc dalğaların əlində oyuncağa dönmüş gəmiyə çevriləndə buludların arasından günəş kimi sıyrılıb çıxan, ürəyini məşəl kimi başı üzərinə qaldırıb nurlu mayak kimi doğru yol göstərən lideri olsun. Heydər Əliyev zamanın ən ağır sınaqlarında Azərbaycanı gözlənilən ən ciddi təhlükələrdən hifz edib qorumağı bacarmış xilaskar oğuldur və hələ sağlığında ümummilli sevginin ünvanına çevrilib əbədiyaşarlıq qazanmışdır.

Heydər Əliyev zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır. Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyev dühasının səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur.

# 9 May Qələbə Günüdür

## Faşizm üzərində qələbənin 74-cü ildönümü qeyd edilib

Faşizm üzərində tarixi qələbənin 74-cü ildönümü Qəbələdə təntənə ilə qeyd edilib. Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev, idarə, müəssisə və təşkilatların rəhbərləri, ictimaiyyətin nümayəndələri şəhərdəki Böyük Vətən Müharibəsi şəhidlərinin şərəfinə ucaldılmış «Ana» abidəsi qarşısına gələrək önünə gül dəstələri qoyublar.

Sonra müharibə veteranları və tədbir iştirakçıları şirniyyat stolu ətrafına toplaşıblar.

Söhbət əsnasında rayon hcra hakimiyyətinin başçısı Səbuhi Abdullayev bəşəriyyətə böyük fəlakətlər gətirən bu müharibədə yüz minlərlə azərbaycanlının da iştirak etdiyini, onların bir qisminin həlak olduğunu, digərlərinin isə qələbədən sonra Vətənə qayıdaraq sonrakı quruculuq illərində iştirak etdiklərini bildirib.

1990-cı illərin əvvəllərində hakimiyyətdəkilər tərəfindən



Böyük Vətən Müharibəsi veteranlarına bəslənilən mənfi münasibətdən, 9 Mayın bayram kimi qadağan edildiyindən söhbət açan RİH-nin başçısı sonralar Heydər Əliyev tərəfindən müharibə və arxa cəbhə iştirakçılarına, veteranlara göstərilən dövlət qayğısının artırıldığını, onların məişət və sosial problemlərinin həlli ilə əlaqədar konkret tədbirlərin görüldüyünü qeyd edib. Bu gün ulu öndərin siyasətini layiqincə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin müvafiq sərəncamları ilə hər il Böyük Vətən Müharibəsi veteranlarının sosial vəziyyətinin yaxşılaşdırıldığını, onların problemlərinin daim diqqətdə saxlanıldığını vurğulayıb.



Müharibə veteranları adından çıxış edən Qurban Ziyadov onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**